# AZƏRBAYCAN

**Paytaxt:** Bakı
**Əhali:** 10.205.810
**Adambaşına ümumdaxili məhsul (ÜDM):** $17,500
**İnsan İnkişafı İndeksi:** Yüksək (0.754)
**"Dünyada azadlıq" hesabatında statusu:** Qeyri-azad (10/100)

## VCT-LƏRİN ÜMUMİ DAYANIQLIĞI: 5.9




2020-ci ildə Azərbaycanda ictimaiyyətin diqqəti COVID-19 pandemiyasına və Ermənistanla uzunmüddətli münaqişənin gedişində döyüş əməliyyatlarının yenidən bərpa olunmasına yönəldi.

COVID-19 pandemiyasına cavab olaraq, 24 mart 2020-ci ildən başlayaraq xüsusi karantin rejimi tətbiq edildi. İlin çox hissəsi ərzində tətbiq olunan karantin dövründə fərdlərin və nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırıldı; əksər kommersiya və təhsil müəssisələri müvəqqəti olaraq bağlandı; və insanların yaşayış yerlərini tərk etmələri üçün xüsusi SMS icazə sistemi tətbiq edildi. Bu məhdudiyyətlər nəticəsində bir çox VCT-lər öz layihələrini həyata keçirməkdə və benefisiarları ilə əlaqə yaratmaqda çətinliklərlə üzləşdilər.

Ermənistanla Azərbaycan arasında beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınan, lakin faktiki olaraq 1994-cü ildən bəri Ermənistanın bir hissəsinə çevrilən Dağlıq Qarabağ ərazisi ilə bağlı gərginlik çoxdan bəri artmaqda idi. Silahlı toqquşmalar 2020-ci ilin iyulunda baş verdi, hər iki ölkədə rəsmilər döyüşlərin başlanmasına görə digər tərəfi günahlandırdılar. Bunun ardınca 2020-ci ilin sentyabrında şiddətli döyüşlər baş verdi. Döyüşlər müharibə aparan iki tərəfin Rusiyanın vasitəçiliyi ilə barışıq sazişi imzalamasınadək qırx dörd gün davam etdi. Azərbaycanda Vətən müharibəsi adlandırılan müharibə bir neçə min insanın ölümü ilə nəticələndi və Azərbaycanın geri qaytardığı ərazilərin əhəmiyyətli bir hissəsini özündə saxlamasına imkan verdi, eyni zamanda Ermənistandan digər əraziləri təhvil verməsi tələb edildi. Müharibənin sona çatması ölkədə olan təxminən 1 milyon qaçqın və məcburi köçkünün (MK) bir qisminin nəhayət doğma yurdlarına qayıda biləcəyinə Azərbaycanda ümidlər yaratdı.

Azərbaycanda siyasi azadlıqların son dərəcə məhdudlaşdırılması davam edir və "Freedom House" təşkilatının 2020-ci ildəki hadisələri əhatə edən "Dünyada azadlıq-2021" hesabatında o, "qeyri-azad" ölkə hesab olunur. Fevral ayında növbədənkənar parlament seçkiləri keçirildi. Seçkilərdə həqiqi siyasi rəqabətin olmamasına və hakim partiyanın parlament üzərində nəzarəti davam etdirməsinə baxmayaraq, bir neçə VCT təmsilçisi yer qazandı. ATƏT/DTİHB-nin Seçki Müşahidəsi Missiyasının seçkilərlə bağlı yekun hesabatına görə, "səslər sayılarkən və yekun protokollar tərtib edilərkən yol verilən əhəmiyyətli prosedur pozuntuları nəticələrin dürüst şəkildə müəyyən edilməsi məsələsi ilə bağlı narahatlıqlar yaratmışdır".

2019-cu ilin noyabrında Prezident Administrasiyası nəzdində yaradılmış Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin rəsmisi yazda ölkədəki müxalifət və qeydiyyatdan keçməmiş partiyalar da daxil olmaqla bir çox siyasi partiya nümayəndələri ilə görüşdü; lakin iki aparıcı müxalifət partiyası görüşdə iştirak etmədi. Görüşdən sonra yeddi partiya qeydiyyata alındı – on ildir Azərbaycanda heç bir siyasi partiya qeydiyyata alınmadığı üçün bu, diqqətçəkən nailiyyət idi. Hökumət və siyasi partiyalar arasında dialoq bütün il ərzində davam etdi. Məsələn, 2020-ci ilin iyulunda Ermənistanla döyüşlər başlayanda qırx üç partiya Prezident Əliyevə və Azərbaycan ordusuna dəstək üçün "Birgə bəyanat" imzaladılar. Eynilə, qeydiyyata alınmış əlli iki siyasi partiyadan əllisi 2020-ci ilin sentyabrında Qarabağda müharibə başlayanda Prezident Əliyevə və Azərbaycan Ordusuna dəstək üçün başqa bir bəyanat imzaladı. Bundan əlavə, iyirmi partiya hökumətdən ofis sahəsi aldı.

Eyni zamanda, hökumət 2020-ci ildə müxalifətə və müxalif fikirlər səsləndirənlərə qarşı təzyiqləri davam etdirdi, o cümlədən bunun üçün COVID-19 ilə bağlı məhdudiyyətlərdən istifadə etdi. "Human Rights Watch" təşkilatı bir sıra müxalif siyasətçilərin il ərzində cinayət ittihamı ilə həbs olunduğunu bildirdi. Məsələn, iyul ayında dövlət orqanları Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) on yeddi yüksək vəzifəli üzvünü ictimai asayişi pozmağa, əmlakı məhv etməyə və müharibə tərəfdarlarının 14 iyul etiraz aksiyasından irəli gələn digər cinayətlərə görə həbs etdilər və barələrində cinayət işi açdılar, halbuki onların çoxu etiraz aksiyasında iştirak etməmişdi.

Bu kontekstdə 2020-ci ildə VCT-lərin ümumi dayanıqlığı dəyişməz olaraq qaldı. Dəyişikliyə uğrayan yeganə göstərici ictimai imic oldu, belə ki, o, pandemiya və Vətən Müharibəsi dövründə VCT-lərin həssas durumda olan qruplara dəstəyinin ictimaiyyət tərəfindən müsbət qəbul edilməsi nəticəsində bir qədər yaxşılaşdı. Hökumət VCT-lərə müxtəlif mexanizmlər vasitəsilə maliyyə dəstəyi göstərməyə davam etsə də, xarici maliyyələşdirmə imkanı problem olaraq qalmaqdadır. Hökumətin COVID-19 pandemiyasına qarşı tətbiq etdiyi tədbirlər və Vətən Müharibəsi dövründə tətbiq olunan internet məhdudiyyətləri də VCT-lərin fəaliyyətinə mane oldu.

Rəsmi məlumata əsasən, 2020-ci ildə Ədliyyə Nazirliyi (ƏN) 71 yerli vətəndaş cəmiyyəti təşkilatını qeydiyyata aldı ki (müqayisə üçün, bu rəqəm 2019-cu ildə 109, 2018-ci ildə 169 idi), bunun da nəticəsində qeydiyyatdan keçmiş qeyri-kommersiya təşkilatlarının ümumi sayı 4.500-ü keçdi. Ölkədə onlarla qeydiyyatsız qruplar da var. İl ərzində üç VCT öz hüquqi statusundan könüllü olaraq imtina etdi.

## HÜQUQİ MÜHİT: 6.4




Vətəndaş cəmiyyətini əhatə edən hüquqi mühit 2020-ci ildə əhəmiyyətli dərəcədə dəyişməmişdir. VCT-lər fəaliyyətlərinə mane olan bir çox maneələrlə üzləşdikləri, xüsusən də xarici maliyyə mənbələrinə çıxışlarını məhdudlaşdıran bir mühitdə fəaliyyətlərini davam etdirirlər. Azərbaycanda VCT-lərin fəaliyyətini tənzimləyən əsas hüquqi aktlara Mülki Məcəllə, "Qeyri-hökumət təşkilatları (QHT-lər) haqqında" Qanun, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanun, Vergi Məcəlləsi və Nazirlər Kabinetinin müxtəlif qərarları daxildir.

Qeydiyyat prosesi mürəkkəb və həddən artıq bürokratik proses olaraq qalır. VCT-lər ümumiyyətlə qeydiyyatdan keçməyə nail ola bilirlərsə, bunun üçün çox zaman aylar və ya illər lazım gəlir. Gecikmələrin çoxunun səbəbi ƏN-in qeydiyyatdan imtina barədə çoxlu məktublar göndərmək praktikasıdır, belə ki, onların hər birində qeydiyyat sənədləri ilə bağlı birdəfəlik bütün problemlər deyil, yalnız bir problem qeyd edilir, halbuki bütün problemlərin birdəfəlik göstərilməsi problemlərin daha sürətli həllinə imkan yaratmış olardı.

Xarici VCT-lərin qeydiyyata alınması prosedurları da mürəkkəbdir və ƏN-in subyektiv yanaşması qeydiyyatı çətinləşdirir. Xarici VCT qeydiyyatdan keçmək üçün ƏN ilə saziş bağlamalıdır. Üstəlik, qanunvericilik xarici təşkilatın nümayəndəliyinin və ya filialının rəhbəri olmaq niyyətində olan əcnəbi vətəndaşın daimi yaşayış icazəsi almasını tələb edir. Lakin daimi yaşayış icazəsi almaq üçün tələblər genişdir və onları praktikada çox zaman yerinə yetirmək mümkün olmur.

VCT-lər xarici mənbələrdən gələn bütün qrantları, həmçinin ianələri və xarici xidmət müqavilələrini ƏN-də qeydiyyatdan keçirməlidir. Bu proses VCT-nin bir sıra sənədləri toplamasını tələb edir və bir çox VCT-lərin bu prosesi uğurla başa çatdırmaq üçün hüquqşünaslara və ya digər təcrübəli VCT nümayəndələrinə müraciət etmələri lazım gəlir. Bu problemlərin qarşısını almaq üçün bəzi VCT-lər kommersiya şirkətləri qurmaqla və ya fərdi vergi ödəyicisi kimi qeydiyyatdan keçməklə fəaliyyət göstərirlər, hərçənd ki, bu, əksər hallarda xarici donorlardan vəsait cəlb etməkdə problemlər yaradır. Xarici xidmət müqavilələrinin qeydiyyatı xarici qrantların qeydiyyatından daha asan və daha sürətli olaraq qalır.

İyun ayında parlament VCT-lər haqqında qanunvericilikdə VCT-lərin qeydiyyatına, xarici vəsaitlərin qeydiyyatına, eləcə də onların təsis sənədlərinə dəyişikliklərin onlayn qaydada qeydiyyatına imkan verən dəyişiklikləri qəbul etdi. ƏN bu sistemin 2021-ci ilin martından başlayaraq hazır olacağını açıqladı. Bəzi xidmətlərin elektronlaşdırılması VCT-lərin vaxtlarına qənaət etmələrinə imkan yaratsa da, mövcud hüquqi əngəlləri əhəmiyyətli dərəcədə aşa bilmək üçün yetərli deyil.

17 mart 2020-ci ildə qəbul edilmiş "İnformasiya, informasiyalaşdırma və informasiyaların mühafizəsi haqqında" Qanuna edilən dəyişikliklər ifadə azadlığını təhlükə altına aldı, belə ki, həmin dəyişikliklərə əsasən COVID-19 pandemiyası ilə əlaqədar yalan xəbərlərin yayılması kriminallaşdırıldı. "Human Rights Watch" təşkilatının bildirdiyinə görə, ilin sonuna qədər internet istifadəçilərinin hökumətin pandemiyaya cavab reaksiyasını tənqid edən materialları silmək məcburiyyətində qaldıqları ən az on hal baş verdi. Bundan əlavə, sosial mediada hökumətin pandemiyaya reaksiyasını tənqid edən paylaşımlara görə 127 nəfərə rəsmi xəbərdarlıq edildi, iyirmi səkkiz nəfər isə cərimələndi və ya həbs edildi. Müharibə dövründə hökumət bütün ölkədə internetə çıxışı məhdudlaşdırdı; bu məhdudiyyətlər yalnız bir neçə həftə qüvvədə qaldı.

VCT-lər qrantlardan, ianələrdən və üzvlük haqlarından tutulan gəlir vergisindən azaddırlar. 2018-ci ilin dekabr ayında Vergi Məcəlləsində dəyişikliklər edilərək elm, təhsil, səhiyyə, idman və ya mədəniyyət sahəsində ixtisaslaşmış VCT-lərə ianələr verən kommersiya şirkətləri üçün 10 faiz gəlir vergisi güzəşti tətbiq edildi. 2020-ci ilin mart ayında Nazirlər Kabineti bu güzəştin həyata keçirilməsi ilə bağlı tədbirləri təsdiqlədi. Təəssüf ki, bu meyarlar hazırlanarkən VCT nümayəndələri ilə məsləhətləşmələr aparılmadı və buna görə də, belə görünür ki, bundan Yazıçılar Birliyi və Rəssamlar İttifaqı kimi dövlət tərəfindən maliyyələşdirilən bir neçə ictimai birliyin faydalanması mümkündür.

Çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi sahəsində risk əsaslı yanaşmanın olmaması nəticəsində VCT-lər Maliyyə Tədbirləri üzrə İşçi Qrupun (FATF) standartlarına zidd olan bir sıra maneələrlə üzləşirlər. Məsələn, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanuna əsasən, bütün VCT-lər daxili auditor təyin etməli, daxili nəzarət sistemi hazırlamalı və müştərilərin eyniləşdirilməsini (identifikasiyasını) və yoxlanmasını (verifikasiyasını) həyata keçirməlidirlər. Bu cür tələblərin yerinə yetirilməsi çox zaman VCT-lərin imkanı xaricində olur. İddia edildiyinə görə, Maliyyə Monitorinqi Xidməti bu tələbləri azaldacaq yeni qanun layihəsi hazırlayır. 2020-ci ildə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyələşdirdiyi "Şəffafliq naminə vətəndaş cəmiyyəti təşkilatları" (ECSOFT) layihəsi çərçivəsində ƏN və Maliyyə Monitorinqi Xidməti ilə birlikdə VCT-lərin çirkli pulların yuyulmasından və terrorizmin maliyyələşdirilməsindən irəli gələn öhdəlikləri ilə bağlı vebinar keçirildi.

VCT-lərin dövlət tərəfindən təqibi halları 2020-ci ildə azaldı. ƏN heç bir VCT-yə cəza vermədi və yoxlama keçirmədi və yalnız bir VCT ƏN tərəfindən müəyyən edilmiş çatışmazlıqlar barədə yazılı xəbərdarlıq aldı. "Human Rights Watch" təşkilatının bildirdiyinə görə, aprel ayında Ali Məhkəmə iki keçmiş siyasi məhbusa – siyasətçi İlqar Məmmədova və hüquq müdafiəçisi Rəsul Cəfərova bəraət verdi, bu, Avropa İnsan Haqları Məhkəməsinin onların xeyrinə illər öncə çıxardığı qərarlardan sonra baş verdi. VCT-lər bölgələrdə hər hansı ictimai tədbir təşkil etməzdən əvvəl hələ də yerli icra hakimiyyətlərindən icazə almalıdırlar.

COVID-19-un yayılmasını məhdudlaşdırmaq üçün tətbiq olunan məhdudiyyətlər VCT-lərin layihələrini həyata keçirmələrini və benefisiarlarla əlaqə yaratmalarını çətinləşdirdi. VCT nümayəndələri bəzi təşkilatların işçilərinin SMS icazə sistemindən yan keçməsinə imkan verən elektron sistemə az sayda VCT-nin daxil edilməsinə etiraz etdilər.

9 sentyabr 2020-ci ildə parlamentdə "Xeyriyyəçilik fəaliyyəti haqqında" qanun layihəsinin hazırlanması üçün işçi qrupu yaradıldı. Lakin VCT-lər bu layihənin hazırlanmasına buraxılmadılar.

VCT-lərə icazə verilir ki, mal və xidmətlər təqdim etməklə, o cümlədən üzlük haqları almaqla və ya sosial müəssisələr yaratmaqla gəlir əldə etsinlər. VCT-lər ianələrə dair qaydalara riayət etmək şərti ilə dövlət satınalmaları üçün müsabiqələrdə iştirak edə və vəsait toplama kampaniyaları ilə məşğul ola bilərlər.

Bakı Dövlət Universitetində tədris edilən QHT qanunvericiliyi üzrə magistratura kursu sayəsində QHT qanunvericiliyi ilə bağlı təlim alan və ya bu qanunvericiliyə bələd olan yerli hüquqşünasların sayı hər il artır. Bölgələrdə VCT-lər hüquqi məsləhətləri ilk növbədə ölkədə fəaliyyət göstərən beş QHT Resurs Mərkəzindən alırlar.

## TƏŞKİLATİ POTENSİAL: 6.1




VCT-lərin təşkilati potensialı 2020-ci ildə əsasən dəyişməz qalmışdır. Əksər hallarda regional VCT-lərin imkanları Bakıdakı həmkarlarının imkanlarından daha zəifdir, çünki onların maliyyə imkanları (həm xarici, həm də yerli) daha azdır və onlar hüquqi və inzibati maneələrlə daha çox üzləşir və mütəxəssis çatışmazlığından əziyyət çəkirlər.

VCT-lər ictimai tədbirlər təşkil etmək üçün dövlət orqanlarından icazə almalıdırlar; bu da onların öz hədəf auditoriyaları ilə birbaşa təmas qurmalarını çətinləşdirir, həmin auditoriyanın maraqlarını təmsil etmək imkanlarından isə danışmağa dəyməz. 2020-ci ildə COVID-19 məhdudiyyətlərindən irəli gələn birbaşa təmasların çatışmazlığını kompensasiya etmək məqsədi ilə həm regional, həm də Bakıda yerləşən VCT-lər hədəf auditoriyaları ilə ünsiyyətdə olmaq üçün sosial mediadan fəal şəkildə istifadə etdilər. Amma texnologiyalara çıxış imkanı və ya texnoloji bacarıqları olmayan qruplar dəstəksiz qaldılar.

Maliyyə məhdudiyyətləri hətta nisbətən böyük VCT-lərin də öz vəzifələrinə tam riayət etməsinə mane olur, kiçik təşkilatlar isə öz missiyalarına çox diqqət ayırmaq iqtidarında deyillər. Maliyyə çətinlikləri həm də uzunmüddətli strateji planlaşdırmanı, demək olar ki, mümkünsüz edir. Nəticədə az sayda VCT strateji planlar hazırlayır və praktik olaraq heç biri onlara əməl edə bilmir.

VCT-lərin əksəriyyətinin yazılı şəkildə bəzi daxili qaydaları olsa da, praktikada onlar nadir hallarda tətbiq olunur. Əksər VCT-lərin müəyyən edilmiş nəzarət səlahiyyətinə malik orqanı olan idarə heyəti və ya şurası vardır; lakin əksər hallarda bu orqanların rolları hesabat tələblərini təmin etməklə məhdudlaşır.

VCT-lərin böyük əksəriyyəti tam ştatlı işçi saxlaya bilmirlər, hüquqşünas və ya mühasib kimi peşəkar mütəxəssislərdən istifadə etmək imkanları isə məhduddur, vəsait toplamaqla və ya ictimai vəkilliklə məşğul olan kadrlardan isə danışmağa dəyməz. Buna görə də, VCT rəhbərləri bu funksiyalardan bir neçəsini özləri yerinə yetirmək məcburiyyətindədirlər. 2020-ci ildə QHT Şurası tərəfindən maliyyələşdirilən layihələrdə işləmək üçün ümumilikdə 1914 nəfər (677 nəfər daimi və 1277 nəfər müvəqqəti əsasda) işə qəbul edildi. Sektorda maliyyə çatışmazlığı və maliyyə qeyri-sabitliyi səbəbindən 2020-ci ildə vətəndaş cəmiyyətindən mütəxəssis axını gücləndi. Peşəkar kadrların çatışmazlığı könüllülərin getdikcə çox istifadə edilməsi sayəsində bir qədər kompensasiya olunur.

2020-ci il Azərbaycanda "Könüllülər ili" elan edildi. Eyni zamanda, COVID-19 ilə bağlı vəziyyət və Qarabağ münaqişəsi yerli səviyyələrdə qeyri-rəsmi könüllü qruplarının yaranmasına təkan verdi. Bu qrupların əksəriyyəti xeyriyyəçiliklə məşğul olurdu, lakin bir neçəsi həm də COVID-19 ilə bağlı qaydaların dəyişdirilməsi və (və ya) yumşaldılması üçün dövlət qurumları ilə birlikdə ictimaiyyəti məlumatlandırma və təbliğat kampaniyaları ilə məşğul olurdu. Gənclik Fondunun dəstəyi ilə pandemiyanın təsirini azaltmaq üçün Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi yaradıldı. Bundan əlavə, hökumət Regional İnkişaf İctimai Birliyinə karantin dövründə ehtiyacı olanlara yardım göstərmək üçün xüsusi iş/səyahət icazəsi verilməsinə həsr olunan internet saytında könüllüləri rəsmi olaraq qeydiyyatdan keçirmək hüququ verdi. Getdikcə daha çox dövlət qurumları və proqramlar, məsələn, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, "Nəqliyyat Könüllüləri" proqramı və "Turizm Könüllüləri" Təşkilatı da öz gündəlik işlərində könüllülərdən istifadə edirlər.

Maliyyə çatışmazlığı VCT rəhbərlərini öz şəxsi yaşayış yerlərindən ofis kimi istifadə etməyə məcbur edir və rəsmi avtomobilə sahib olmaq, demək olar ki, heç bir VCT-nin ödəyə bilməyəcəyi bir lüksdür. Bölgələrdəki QHT-lərin Resurs Mərkəzləri kifayət qədər yaxşı təchiz olunmuşdur və tədbirlərin keçirilməsi və gündəlik işlərin aparılması üçün VCT-lərə öz imkanlarını ödənişsiz olaraq təqdim edirlər. Bu mərkəzlər, ən sərt karantin dövrləri istisna olmaqla, il ərzində VCT-lərə xidmət göstərməyə davam etdi, baxmayaraq ki, ondan çox iştirakçı ilə heç bir tədbirin keçirilməsinə icazə verilmirdi. Davamlı maliyyə çatışmazlığı səbəbindən VCT-lərin avadanlıqları köhnəlmişdir. Xüsusilə son dövrlərdə gömrük rüsumu ödəmədən onlayn alış-veriş etmək üçün məbləğin 1000 dollardan 300 dollaradək endirilməsindən sonra yeni avadanlıqlar VCT-lər üçün çox bahadır. Gənclər Fondu

avadanlıqların modernləşdirilməsi və bir il ərzində ofis və inzibati xərclərlə bağlı məsrəflərin ödənilməsi üçün gənclər təşkilatlarına qrant ayırmışdır. Eynilə, QHT Şurası tərəfindən maliyyələşdirilən layihələr vasitəsilə VCT-lər 2020-ci ildə əlli altı kompüter, on üç printer və altmış səkkiz digər cihaz ala bilmişlər.

VCT-lər COVID-19 məhdudiyyətlərinə reaksiya olaraq rəqəmsal bacarıqlarını xeyli artırdılar. İl ərzində VCT-lər həm Bakıda, həm də bölgələrdə mövcud olan internetdən geniş istifadə edərək qanunvericilikdəki dəyişikliklər və yeni maliyyələşdirilmə imkanları, konfranslar və təlim proqramları kimi onlayn tədbirlər barədə məlumat əldə etdilər. Müvafiq avadanlıqları olmayan VCT-lər, bir qayda olaraq, mobil telefonları vasitəsilə onlayn məlumatlara və tədbirlərə çıxış əldə edə bilirdilər.

## MALİYYƏ DAYANIQLIĞI: 6.4




Yerli donorların ümumi sayında bir qədər artım olmasına baxmayaraq, VCT-lərin maliyyə dayanıqlığı 2020-ci ildə dəyişməmişdir.

ƏN-in rəsmi statistikasına əsasən, 2020-ci il ərzində 571 xarici qrant, 65 xarici xidmət müqaviləsi və 501 xarici ianə qeydə alınıb ki, bu da 2019-cu ildə ümumilikdə qeydə alınmış 1955 qrant, xidmət müqaviləsi və ianə ilə müqayisədə azalma deməkdir. Bu maliyyə vəsaitlərinin dəqiq mənbələri və bu ianələrin məbləğləri haqqında heç bir məlumat yoxdur. Bununla belə, VCT-lərin bildirdiyinə görə, 2020-ci ildə Avropa İttifaqının (Aİ) birbaşa qrantları əvvəlki ilə nisbətən daha az olmuşdur, belə ki, onların ƏN tərəfindən qeydiyyata alınması şansını artırmaq üçün onlardan ən azı ikisini Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) vasitəsilə təqdim etmək lazım gəlmişdir. ƏN ümumiyyətlə ABŞ səfirliyi tərəfindən verilən qrantları qeydə almır. Bəzi xarici qrantlar digər VCT-lərə ayrılan subqrantları özündə ehtiva edir.

Əvvəlki illərdə olduğu kimi 2020-ci ildə də bir çox VCT-lər onlarla əlaqəli kommersiya müəssisələri vasitəsilə və fərdi xidmət müqavilələri əsasında xarici maliyyə almağa davam etdilər. Bu, VCT-lərin qısa müddətdə ayaqda qalmasına kömək etsə də, özlərinin dayanıqlı qrant tarixçəsini təmin etmələrinə kömək etmir. Bundan əlavə, VCT-lərdən fərqli olaraq, kommersiya subyektləri əldə etdikləri gəlirə görə gəlir vergisi və ƏDV ödəyirlər. Üstəlik, bəzi xarici donorlar bu cür mexanizmlərə icazə vermirlər.

QHT-lərə Dəstək Şurası və Gənclər Fondundan maliyyələşmə əksər fəal təşkilatlar üçün vacib maliyyə mənbələri olaraq qalır. 2020-ci ildə QHT Şurası dəyəri 3,6 milyon manata (təxminən 2,1 milyon dollar) bərabər olan 505 layihəni maliyyələşdirdi ki (568 layihənin maliyyələşdirildiyi 2019-cu illə müqayisədə azalma), bu da 2019-cu ildəki 2,3 milyon dollarla müqayisədə bir qədər azalma deməkdir. Vətənpərvərlik, vətəndaş fəallığı, insan hüquqları, əlillərin hüquqları, ətraf mühitin qorunması və təhsil kimi sahələrdə, habelə məişət zorakılığının qarşısının alınması, əhalinin məcburi tibbi sığorta ilə bağlı maarifləndirilməsi və COVID-19 ilə bağlı profilaktik tədbirlərin həyata keçirilməsi kimi yeni mövzularda qrant müsabiqələri təşkil edildi. 2020-ci ildə QHT Şurası otuz dövlət agentliyi və orqanı ilə əməkdaşlıq edərək QHT layihələri üçün qrant müsabiqələri keçirdi ki, bu da 2019-cu ildə baş tutmuş on səkkiz dövlət donorunun iştirakı ilə müqayisədə artım deməkdir. VCT-lərə maliyyə ayıran yeni qurumlara Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi aiddir. QHT Şurası qrantların ayrılması prosesi ilə bağlı dövlət orqanlarına məsləhətlər verməyə davam edir. 2020-ci ildə üç dövlət orqanı əlli iki layihə təklifi ilə bağlı Şuradan məsləhət almış, onlardan on ikisi təsdiqlənmişdir.

Qeydiyyatdan keçməmiş qruplar bank hesabları açmalarına icazə verilmədiyi üçün bu maliyyədən hələ də faydalana bilmirlər, böyük VCT-lər isə QHT Şurası tərəfindən təklif olunan kiçik məbləğlərlə ümumiyyətlə maraqlanmırlar. Bəzi VCT -lər şikayət edirlər ki, ildə iki əsas yerli donora yalnız bir layihə təqdim edə bilərlər. Bundan əlavə, qrantlar ilk növbədə hökumətyönlü təşkilatlara verilir, qismən ona görə ki, müstəqil QHT-lər xarici donorların

gözündə hökumətlə əlaqəli görünmək istəmədikləri üçün bu qrantlardan ötrü müraciət etmirlər. İl ərzində qırx altı VCT QHT Şurasının maliyyələşdirmə qərarlarından şikayət etmiş, nəticədə onlardan on dördünə maliyyə ayrılmışdır.

İyirmidən çox elektron xidmətlər təklif edən QHT Şurasının SƏLİS sistemi pandemiya dövründə çox səmərəli olduğunu sübut etdi, belə ki, o, VCT-lərə təklif və hesabatlarını elektron qaydada təqdim etməyə və QHT Şurasının işçiləri ilə elektron ünsiyyət qurmağa imkan verdi. 2020-ci ildə QHT Şurası qrant müqavilələrinin bağlanması və son layihə hesabatlarının alınması üçün yeni bir prosedur tətbiq etmişdir ki, bu da sənədlərin elektron imza vasitəsilə elektron formatda rəsmiləşdirilməsini nəzərdə tutur.

Gənclər Fondu 2020-ci ildə gənc fəallar və gənclərin QHT-ləri üçün bir neçə qrant müsabiqəsi keçirdi. Məsələn, o, fevral-mart aylarında qrant müsabiqəsi yolu ilə on səkkiz yerli və bir xarici layihəni dəstəklədi, 2020-ci ilin oktyabr ayında isə "Vətənim Azərbaycan" müsabiqəsi çərçivəsində iyirmi layihəni maliyyələşdirdi. Bundan əlavə, o, gənclərin VCT-lərinin beynəlxalq tədbirlərdə iştirak etmələri üçün iştirak haqlarını, səfər və yaşayış xərclərini əhatə edən səyahət qrantları təqdim etmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sosial sifariş təklif edən yeganə nazirlik olaraq qalır. O, VCT-lərlə neçə sosial sifariş bağladığını açıqlamasa da, 2020-ci ildə ən azı üç sosial sifarişin bağlanması üçün çağırışı etmişdir.

19 mart 2020-ci ildə Prezident COVID-19 pandemiyası ilə əlaqədar vətəndaşlara vurulan maddi ziyanı ödəmək üçün kompensasiya mexanizminin yaradılması haqqında fərman verdi. Lakin bu mexanizm əsasən kommersiya fəaliyyəti ilə məşğul olan şirkətlərə və şəxslərə yönəlmiş və VCT-lərə birbaşa fayda verməmişdir.

VCT-lərin digər gəlir mənbələri, məsələn, üzvlük haqları, yerli ianələr, kommersiya tenderləri, vəsait toplama və yerli və beynəlxalq biznes fəaliyyəti əvvəlkitək minimal olaraq qalır. İctimaiyyətdən vəsait toplama fəaliyyətləri və nağd yardım qutularının istifadəsi qanunla lazımi qaydada tənzimlənmir ki, bu da bir çox VCT-ləri bu vəsait toplama metodlarından istifadə etməkdən çəkindirir. Anonim ianələrin qadağan edilməsi və xeyriyyə təşkilatlarına nağd ianələr üçün 200 AZN (təxminən 117 ABŞ dolları) məbləğində limit qoyulması VCT-lərə ianələr verilməsinə maneə yaratmaqda davam edir.

Regional VCT-lərin, eləcə də paytaxtdakı bir çox VCT-lərin güclü maliyyə idarəçiliyi sistemləri yoxdur. Yalnız bir neçə VCT illik maliyyə hesabatlarını dərc edərək maliyyə məlumatlarını açıqlayır, hərçənd ki, qanuna əsasən onlar bu məlumatları Maliyyə Nazirliyinə təqdim etməlidirlər.

## İCTİMAİ VƏKİLLİK: 5.5

VCT-lərin ictimai vəkillik fəaliyyəti 2020-ci ildə əsasən dəyişməz qalmışdır.




COVID-19 səbəbindən VCT-lər onlayn vasitələrdən savayı başqa yolla siyasət məsələlərinə dair tövsiyələr verə və ictimai şuralarda, müzakirələrdə və işçi qruplarında iştirak edə bilmədilər. QHT Şurası da ictimai müzakirələr təşkil etmədi. Qanun layihələri ilə bağlı VCT-lərlə məsləhətləşmələr hələ də ardıcıl olaraq təşkil edilmir. Xüsusilə, Nazirlər Kabineti heç vaxt VCT-lərlə, hətta birbaşa onlara aid olan mövzularda belə ictimai müzakirələr keçirmir, parlament isə bu günə qədər yalnız bir neçə belə müzakirə təşkil etmişdir. Məsələn, VCT-lərə ianə verən şirkətlər üçün 10 faizlik vergi güzəştindən faydalananlara aid meyarlar barədə VCT-lərlə məsləhətləşmə aparılmayıb; nəticədə həmin meyarlara Yazıçılar Birliyi və Rəssamlar İttifaqı kimi dövlət tərəfindən maliyyələşdirilən bir neçə ictimai birlik uyğun gəlir.

Məhəllə komitələri ("Bələdiyyələrin statusu haqqında" Qanuna əsasən, yerli sakinlərin könüllü birlikləri) kimi digər ictimai vəkillik alətləri müvafiq mexanizm və praktikanın olmaması səbəbindən hələ də istifadə edilməmiş

qalır. 40 min vətəndaşın qanunyaradıcı təşəbbüslə çıxış etmək kimi qanuni imkanından istifadə etməsi üçün hələ də heç bir prosedur yoxdur.

Bu maneələrə baxmayaraq, hökumət 2020-ci ildə VCT-lərə münasibətdə daha çox açıqlıq nümayiş etdirdi. Payızda prezidentin köməkçisi VCT-lərin problemlərini və hökumət-VCT əməkdaşlığının və qarşılıqlı əlaqəsinin yaxşılaşdırılması yollarını müzakirə etmək üçün 300-dən çox VCT nümayəndəsi ilə bir sıra onlayn görüşlər təşkil etdi. Bundan əlavə, Qarabağ müharibəsi veteranlarına və onların ailələrinə dəstək verən Yaşat Fondunun Himayəçilik Şurasına üzvlüyə Prezident sərəncamı ilə iki VCT nümayəndəsi təyin edildi. Bəzi dövlət qurumları VCT-lərin yeni ictimai şuralar vasitəsilə qərar qəbul etmə proseslərində daha geniş iştirak etməsinə imkan yaradaraq VCT-lərlə əməkdaşlıq etməyə hazır olduqlarını nümayiş etdirdilər.

2020-ci ildə iki yeni dövlət qurumu – Dövlət Reklam Agentliyi və Mədəniyyət Nazirliyi VCT üzvlərindən ibarət ictimai şuraların yaradılması prosesinə başladı və bu cür şuraları olan dövlət orqanlarının ümumi sayı on dördə çatdı. Bu ictimai şuralar müxtəlif dərəcədə səmərəli fəaliyyət göstərir, lakin ümumən potensialları artmaqda davam edir. 2020-ci ildə ECSOFT layihəsi çərçivəsində 2019-cu il konfransında hazırlanmış tövsiyələr əsasında seçki prosesinə və ictimai şuraların fəaliyyətinə dair bələdçi hazırlandı. İctimai şuraların səlahiyyətləri hələ də məhduddur. Prezident Əliyevin il ərzində ictimai çıxışlarında dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarətin vacibliyini bir neçə dəfə vurğulamasına baxmayaraq, məmurlar lazımi tədbirləri görmək üçün səy göstərmirlər.

ATƏT/DTİHB müşahidəçilərinin bildirdiyinə görə 2020-ci ilin fevral ayında keçirilmiş parlament seçkiləri azad və ədalətli olmasa da, bir neçə VCT rəhbərinin parlamentə seçilməsi ilə nəticələnmişdir. Səlahiyyətlərinin icrasına başladıqdan sonra onlar VCT-lər barədə qanunvericiliyin sadələşdirilməsini müdafiə etdilər. Parlament seçkilərində yerli VCT-lərin rolu əvvəlki seçkilərlə müqayisədə məhdud idi. Bununla belə, ən azı iki VCT – "Hüquq və İnkişaf" ictimai birliyi və "Demokratiyanı Öyrənmə" ictimai birliyi seçicilərin maarifləndirilməsi ilə məşğul oldu, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) daxil olmaqla bəzi VCT-lər isə "exit-poll" və seçkilərin monitorinqini həyata keçirdilər.

2020-ci ilin əvvəlində Açıq Hökumət Tərəfdaşlığı (AHT) təşəbbüsü çərçivəsində 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı (MFP) qəbul edildi, hərçənd ki, 2016-cı ildən etibarən Azərbaycanın AHT-dəki statusu dayandırılıb. MFP VCT-lərin və ayrı-ayrı ekspertlərin yaxından iştirakı ilə hazırlanıb və dövlət orqanlarının şəffaflığının və hesabatlılığının monitorinq edilməsində hökumətlə vətəndaş cəmiyyəti arasında əməkdaşlığı nəzərdə tutur. O həmçinin ictimai şuraların gücləndirilməsi kimi bəzi tədbirlərin həyata keçirilməsində VCT-lərin iştirakını nəzərdə tutur.

2020-ci ildə VCT-lər məişət zorakılığı ilə bağlı təbliğat işlərində geniş iştirak etdilər. İki VCT – "Konstitusiya" Araşdırmalar Fondu və "Qadınlar Arasında Həmrəylik" ictimai birliyi məişət zorakılığı ilə bağlı yeni qanun layihəsi üçün dörd təklifdən ibarət paket hazırladılar, onlardan ikisi qəbul edildi. Qanun layihəsi hələ qəbul edilməsə də, beynəlxalq təcrübəni əks etdirən mühüm müddəaları özündə ehtiva edir. 2020-ci ilin noyabr ayında "Məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiq edildi. Milli Fəaliyyət Planı məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi bazanı beynəlxalq təcrübəyə uyğunlaşdırmağı hədəfləyir. Bundan əlavə, həmin plan məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində maarifləndirmə işlərinin təşviq edilməsinə; məişət zorakılığı qurbanlarının müəyyən edilməsinin təkmilləşdirilməsinə; və məişət zorakılığı qurbanlarına müasir standartlara uyğun yardım göstərilməsinə yönəlmişdir.

VCT-lərin mövcud ictimai vəkillik platformaları arasında Milli QHT Forumu, Cənubi Qafqaz Qadın Konqresi, Şərq Tərəfdaşlığı Proqramının Vətəndaş Cəmiyyəti Forumunun (ŞTPVCF) Milli Platforması və AHT Platforması vardır. İctimai vəkillik potensialı və praktikası əsasən Bakıdakı VCT-lərlə məhdudlaşır, regional VCT-lərin ictimai vəkillik potensialı isə məhduddur.

Sosial şəbəkələr nisbətən sərbəst ictimai məkan təqdim etdikləri üçün VCT-lər sosial mediadan həm ictimaiyyətin məlumatlandırılması, həm də təbliğat vasitəsi kimi getdikcə daha çox istifadə edirlər. Bununla belə, xüsusən bölgələrdə olan VCT-lər hələ də sosial mediadan tam şəkildə istifadə etməyi öyrənməmişlər.

COVID-19 səbəbindən VCT-lərin beynəlxalq miqyasda ictimai vəkillik fəaliyyəti yalnız onlayn tədbirlərdə iştirak etməklə məhdudlaşmışdır. Məsələn, 2020-ci ildə VCT-lər Avropa Şurası, Aİ və BMT-nin müxtəlif tədbirlərindən istifadə edərək VCT qanunvericiliyi, hökumətlə əməkdaşlıq və insan hüquqları məsələləri ilə bağlı narahatlıqlarını ifadə etdilər.

QHT Şurasının maliyyə dəstəyi ilə "Konstitusiya" Araşdırmalar Fondu VCT-lərin qeydiyyatını, qrantların və xidmət müqavilələrinin qeydiyyatını və hesabatların verilməsini asanlaşdıracaq bir sıra qanunvericilik tövsiyələrinin hazırlanması səylərinə VCT hüququ üzrə bir neçə eksperti cəlb etdi. Bu sənəd QHT Şurasına və parlamentə təqdim edildi. Bir neçə millət vəkili paketi dəstəkləsə də, onun qəbul edilməsi baxımından 2020-ci ildə heç bir konkret nəticə əldə edilməyib.

## XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİ: 5.4




VCT-lər tərəfindən xidmətlərin göstərilməsi 2019-cu ildəki səviyyədə qalmışdır. "Sosial xidmətlər haqqında" 2012-ci il tarixli Qanun hələ də geniş istifadə olunmasa da, dövlətin VCT-lərlə sosial xidmətlərə dair müqavilə bağlaması üçün hüquqi bazanı təmin edir. Bəzi dövlət orqanları, əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, sosial xidmət, səhiyyə, təhsil və hüquqi yardım sahələrində xidmətlərin göstərilməsinə VCT-ləri cəlb edir.

İri VCT-lər digər VCT-lərə, o cümlədən xarici VCT-lərə tədqiqat, qiymətləndirmə, monitorinq və təlim xidmətləri daxil olmaqla müxtəlif sahələrdə xidmətlər göstərir. VCT-lər 2020-ci ildə pandemiya dövründə ailələrə ərzaq yardımı göstərilməsi, tibbi ləvazimatlar (maskalar da daxil olmaqla) verilməsi və ehtiyacı olan insanlara maliyyə dəstəyi göstərilməsi də daxil olmaqla yeni xidmətlər təklif etdilər. Gənclər Fondunun dəstəyi ilə gənclərin VCT-ləri təcrid olunmuş insanlara və ahıllara COVID-19 ilə əlaqədar maarifləndirmə və sosial qayğı daxil olmaqla xidmətlər göstərdilər. VCT-lər həmçinin Vətən Müharibəsindən zərər çəkmiş vətəndaşlara ərzaq və digər əşyaların paylanması və psixoloji və hüquqi yardım göstərilməsi daxil olmaqla müxtəlif xidmətlər göstərdilər.

VCT-lər icmalarla əlaqədar işin və 2020-ci ildə baş verən yeni sosial proseslərin fonunda öz rollarını Qarabağda vəsaitlərin düzgün xərclənməsinə ictimai nəzarətin həyata keçirilməsində, psixoloji yardımın göstərilməsində və xüsusən müharibə veteranlarının sayının artdığı bir şəraitdə əlilliyi olan insanların inklüzivliyinin təmin edilməsində görürlər.

VCT-lərin imkanlarının məhdudlaşması səbəbindən əksər təşkilatlar müəyyən icmaların və ya hədəf qruplarının ehtiyaclarını ödəməkdən daha çox, öz mövcudluqlarını qoruyub saxlamağa diqqət yetirirlər. VCT-lərin xidmətləri əsasən donorların proqramları ilə müəyyən edilir ki, onlar da adətən VCT-lərin özləri tərəfindən həyata keçirilən qiymətləndirmələrə deyil, sosial ehtiyacların müəyyənləşdirilməsinə yönələn araşdırmalara əsaslanır.

ƏN xidmət müqavilələrini qrantlardan daha asan qeydiyyata aldığından, hələ də bir çox VCT-lər donorlar tərəfindən maliyyələşdirilmələrini xidmət müqaviləsi kimi qeydiyyata almağa üstünlük verirlər. Az sayda bəzi seçilmiş VCT-lər adətən akademik qurumlara, beynəlxalq təşkilatlara, biznes agentliklərinə və hökumətə məsləhət və texniki yardım göstərilməsinə yönələn ödənişli xidmətlər təklif edirlər; yerli icmalar isə adətən maddi cəhətdən xidmətlərin haqqını ödəmək iqtidarında deyillər.

Ümumiyyətlə, hökumət VCT-lərə şübhə ilə yanaşır, buna görə də hökumət tərəfindən ümumən VCT-lərin xidmətlərinin hər hansı formada tanınmasından danışmaq çətindir. Bununla belə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi VCT-lərin xidmətlərini kifayət qədər yüksək qiymətləndirir, məsələn, onun VCT-lərə təqdim etdiyi çoxsaylı sosial müqavilələr bunu sübut edir. Misal üçün, VCT-lər bölgələrdə sağlamlıq imkanları məhdud uşaqlara gündüz saatlarında qayğı mərkəzləri işlədir və pandemiya dövründə zəruri tələbat mallarının qiymətlərinin monitorinqini aparırlar.

İyun ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Xidmət və Sosial İnnovasiyalar Agentliyi adlı publik hüquqi şəxs yaradıldı. Bu Agentlik əvvəllər VCT-lər tərəfindən göstərilən bir çox xidmətləri göstərəcək və potensial olaraq VCT-ləri bu xidmət sahələrindən sıxışdırıb çıxaracaq.

## SEKTORUN İNFRASTRUKTURU: 5.8

VCT sektorunu dəstəkləyən infrastruktur 2020-ci ildə əsasən dəyişməz qalmışdır.

Bakı, Quba, Qəbələ, Mingəçevir, Şəmkir və Şirvandakı QHT Resurs Mərkəzləri texniki və infrastruktur dəstəyi göstərməkdə və yerli VCT-lər üçün təlim proqramları təşkil etməkdə davam edir. Bu Resurs Mərkəzləri müxtəlif qruplar üçün, o cümlədən Bakıda yerləşən təşkilatlar üçün tədbirlərin və icmalarla və VCT-lərlə görüşlərin təşkili üzrə ödənişli xidmətlər göstərir. 2020-ci ildə QHT Şurası Bakıdakı resurs mərkəzi üçün 29.500 AZN (təxminən 17.500 ABŞ dolları) və bölgələrdə yerləşən beş mərkəz üçün 18.000 AZN (təxminən 10.500 ABŞ dolları) məbləğində qrant ayırdı. Tam qapanma dövrləri istisna olmaqla, QHT Resurs Mərkəzləri il ərzində ayrı-ayrı VCT-lərə texniki yardım göstərməyə və məsləhətlər verməyə davam etmişlər.




2019-cu ildə VCT-lər Beynəlxalq Mətbuat Mərkəzi, Olimpiya Kompleksləri, H. Əliyev Mərkəzləri, Gənclər Mərkəzləri və Bakı Konqres Mərkəzi də daxil olmaqla Bakıda müxtəlif məkanların VCT-lərin tədbirləri üçün yer təklif etdiyini təsdiqləsələr də, kütləvi toplanışlara COVID-19 ilə əlaqədar məhdudiyyətlər qoyulması səbəbindən bu obyektlər 2020-ci ilin əksər hissəsi ərzində bağlanmışdı. VCT-lərin toplantılar keçirməsi üçün ödənişsiz yer təklif edən Qadın Resurs Mərkəzləri (QRM) və Bakı QHT Resurs Mərkəzi də 2020-ci ildə əyani tədbirlərə qapılarını bağlamışdır.

Bir neçə milli VCT platforması vardır. 743 VCT 1999-cu ildə yaradılmış Milli QHT Forumunun üzvüdür, 2009-cu ildə yaradılmış ŞTPVCF-nin müstəqil Azərbaycan Milli Platforması isə 71 VCT-ni birləşdirir. Həmçinin tematik koalisiyalar uşaq hüquqları, əlillərin və sağlamlıq problemləri olan insanların hüquqları kimi məsələlərlə məşğul olan VCT-ləri bir araya gətirir.

Bölgələrdə VCT-lərin sayını artırmaq və maddi-texniki bazalarını yaxşılaşdırmaq məqsədi ilə QHT Şurası 2020-ci ildə səksən üç regional VCT-ə maliyyə ayırdı və digər dəstək xidmətləri göstərdi. Bəzi yerli VCT-lər Aİ, USAID və digər donorlardan gələn xarici vəsaitləri sub-qrant kimi təklif edirlər.

2020-ci ildə təlimlərdən yararlanmaq imkanı ümumən dəyişməz olaraq qaldı, hərçənd ki,  əksər təlimlər onlayn qaydada keçirildi. ŞTPVCF-nin Azərbaycan Milli Platforması 2020-ci ildə insan hüquqları, liderlik və layihə təklifi yazma kimi mövzularda bəzi onlayn təlim proqramları təşkil etdi. "MG Consulting" şirkəti təklif yazma, hesabat yazma, layihələri idarə etmə, etik qaydalar və ictimai vəkillik kimi mövzularda yerli onlayn təlim imkanları və materiallar təklif etdi. 2020-ci ildə USAID tərəfindən maliyyələşdirilən ECSOFT layihəsi çərçivəsində VCT-lər üçün korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizə, ictimai vəkillik, ictimaiyyətdən vəsait toplama, etika qaydaları və ictimai şura üzvlərinin potensialının artırılması daxil olmaqla müxtəlif mövzularda təlimlər keçirildi. QHT Şurasının dəstəyi ilə 400-ə yaxın VCT pandemiya ilə bağlı onlayn konfransa qatıldı. QHT Şurası Qarabağ mövzusunda VCT-lərlə birlikdə altı ictimai müzakirə, iki konfrans və üç dəyirmi masa təşkil etdi.

Sektorlararası tərəfdaşlıq hələ də yetərincə inkişaf etməyib. On dövlət qurumunu və otuz dörd VCT-ni birləşdirən AHT Milli Platforması sahələrarası əməkdaşlığın nadir müsbət nümunəsidir. Platforma 2020-ci ildə VCT-lərlə dövlət qurumları arasında bir neçə müzakirə təşkil etdi və "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın hazırlanmasında yaxından iştirak etdi. Bəzi VCT-lər korporativ sosial məsuliyyət siyasəti çərçivəsində məhdud dəstək alsalar da və kommersiya müəssisələri ilə işləsələr də, VCT-lərlə kommersiya müəssisələri və ya media arasında real tərəfdaşlığın mövcudluğu bilinmir.

## İCTİMAİ İMİC: 5.6




VCT sektorunun ictimai imici 2020-ci ildə bir qədər yaxşılaşmışdır. Bu yaxşılaşmanın səbəbi QHT Şurası tərəfindən dəstəklənən layihələrdəki fəaliyyətlərə medianın geniş cəlb olunmasından, eləcə də pandemiya və Vətən Müharibəsi dövründə VCT-lərin həssas qruplara dəstəyinin müsbət qarşılanmasından ibarətdir.

QHT Şurası 2020-ci ildə medianın iştirakını özündə ehtiva edən bir sıra layihələrə dəstək verdi. Məsələn, Real TV otuz səkkiz VCT-nin iştirakı ilə on doqquz gün ərzində televiziya proqramları yayımladı və cəmiyyətin qorunması üçün insanları evdə qalmağa çağırdı. Bundan əlavə, açıq hökuməti təbliğ edən iyirmi televiziya proqramı yayımlandı, habelə "Vətəndaş cəmiyyəti" jurnalının VCT-lər tərəfindən həyata keçirilən 500-dən çox layihə və fəaliyyəti işıqlandıran on iki buraxılışı nəşr edildi. QHT Şurası tərəfindən idarə olunan www.qhtxeber.az (QHT xəbərləri) saytında VCT-lərlə bağlı təxminən 57.000 xəbər yerləşdirildi (bu, 2019-cu ildəki 53.450 rəqəmi ilə müqayisədə artım deməkdir) və 420.000 oxucu tərəfindən oxundu (bu, 2019-cu ildəki 370.000 rəqəmi ilə müqayisədə artım deməkdir). Eynilə, VCT-lər üçün nəzərdə tutulan www.qht.az saytında 2.326-dan çox məlumat yerləşdirildi ki, onların da oxucusunun sayı 300.000-ə çatdı.

Onlayn media vasitələri 2020-ci ildə maarifləndirmə, təlim və nəşrlərin buraxılışı daxil olmaqla VCT-lərin bir çox fəaliyyətlərini daha fəal şəkildə işıqlandırdılar. Baxmayaraq ki xüsusən pandemiya durumu səbəbindən sosial reklam konsepsiyasının dərkinin artdığı görünür, VCT-lər televiziyada problemlərini işıqlandırmaq üçün hələ də kommersiya tarifləri üzrə ödəniş etməlidirlər.

VCT-lər barədə ictimaiyyətin təsəvvürü həm pandemiyaya onların reaksiyası ilə, həm də müharibədən zərər çəkən əhaliyə göstərdikləri dəstəklə əlaqədar olaraq artmışdır. Bununla belə, bir çox VCT-lər hələ də rəhbərlərinin adları ilə əlaqələndirilir. Media tez-tez VCT rəhbərlərini öz VCT-lərinin nümayəndələri kimi deyil, fərdi ekspertlər kimi təqdim edir ki, bu da sektorun imicinin şəxsiyyət amilinə əsaslanmasına gətirib çıxarır. Bu durum pandemiyaya və veteranların müharibədən sonrakı qayğılarına cavab olaraq bir çox qeyri-rəsmi kütləvi qrupların meydana çıxması səbəbindən bir qədər dəyişmişdir.

Ümumiyyətlə, hökumətin VCT-lərə münasibəti hələ də birmənalı deyil və xeyli dərəcədə VCT rəhbərinin kimliyindən, VCT-nin fəaliyyətlərindən və ayrı-ayrı dövlət məmurlarının yanaşmasından asılı olaraq qalır.

VCT-lər ictimaiyyətlə əlaqələr üzrə peşəkar işçiləri işə götürmək iqtidarında deyillər, buna görə də ictimaiyyətlə əlaqələr strategiyalarını hazırlamaq və həyata keçirmək üçün könüllülərə və ya rəhbərlərinə güvənmək məcburiyyətində qalırlar. VCT-lər işləri barədə informasiyaları paylaşmaq üçün ənənəvi televiziyadan və ya çap mediasından daha çox Facebook və YouTube kimi sosial media vasitələrindən istifadə edirlər, çünki onlar ənənəvi çap mediasına və ya rəqəmsal mediaya nisbətən daha çox azadlıq imkanı yaradır. İnternet vasitəsilə yayımlanan QHT TV (www.qhttv.az) VCT-lərlə bağlı video və xəbərləri mütəmadi olaraq yerləşdirməyə davam etmişdir; o, 2020-ci ildə 259 video yayımlamış və yayımlandığı gündən bəri ümumi baxış sayı 177.000-dən çox olmuşdur. Proqramların birində ən yaxşı beynəlxalq QHT təcrübələri müzakirə edilmişdir. Bu portalın 2000 nəfərdən çox abunəçisi var. QHT TV -nin Facebook səhifəsinin 3000-dən çox abunəçisi var; o, 2020-ci ildə həmin səhifədə 76 mindən çox insanın baxdığı 103 video yerləşdirmişdir. Bundan əlavə, www.qhtfilm.az adlı xüsusi internet saytı gənclər, sosial problemlər, məcburi köçkünlər və əlillərin problemləri kimi mövzularda VCT-lərin hazırladığı filmləri yerləşdirir; 2020-ci ildə o, bir videonu paylaşmışdır. İnternet vasitəsilə yayımlanan "Açıq Hökumət" TV-nin 2020-ci ildə VCT-lərin məsələlərinə həsr olunmuş bir neçə proqramı olmuşdur.

Bir çox VCT-nin hələ də internet saytı yoxdur və onlar illik hesabatlar dərc etmirlər. VCT-lərin şəffaflığını və hesabatlılığını təşviq etmək üçün 2020-ci ildə QHT Şurası otuz iki sayt yaratmaq məqsədilə beş QHT-yə maliyyə dəstəyi verdi. Həmçinin iki onlayn portal VCT-lərin öz fəaliyyətləri haqqında məlumatları pulsuz yerləşdirmələrini təmin edir. Bu portallardan birində (www.qht.az) VCT-lərin və VCT rəhbərlərinin onlayn məlumat bazası var.

USAID-in ECSOFT layihəsinin maliyyələşdirməsi ilə yerli VCT ictimai şuralar haqqında informasiyaları, o cümlədən xəbərləri, hesabatları və əlaqə məlumatlarını özündə əks etdirən xüsusi bir sayt (http://ictimaishura.az/) hazırlamışdır. VCT-lərin çoxu etik davranış kodeksləri qəbul etməyib və onlara riayət etmirlər.

***Bildiriş:*** *Burada ifadə edilmiş rəylər müzakirə iştirakçılarının və digər layihə tədqiqatçılarının öz rəyləridir və USAID-in və ya "FHI 360" təşkilatının rəylərini əks etdirməyə bilər.*